# İNDU SUNDARESANIN "KÖLGƏ ŞAHZADƏ" ROMANINDA ŞAHZADƏ ƏURƏNGZƏBİN HAKİMİYYƏT UĞRUNDA MÜBARİZƏSİNİN BƏDİİ ƏKSİ

**Leyla Pirimova**
Doktorant
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Azərbaycan
E-mail: leyla.pirimova@mail.ru

https://doi.org/10.59849/iscapltmt.2024.253

**Xülasə.** İndu Sundaresanın romanlarında tarixiliklə bədii təxəyyülün vəhdətini aydın şəkildə görmək olar. Yazıçının tarixi romanlarında tarixi şəxsiyyətlərin obrazlarının yaradılması davamlı proses olmuşdur. Obrazları yaradılan bu tarixi şəxsiyyətlər tarixdə iz qoymuşlar. Ədibin digər romanlarında olduğu kimi, "Kölgə şahzadə" romanında da hakimiyyət uğrunda mübarizə öz bədii əksini tapmışdır. Taxt uğrunda ailənin bütün erkəklərini bərtərəf edərək öz səltənətini quran Şah Cahana tarixin dərsi ağır olur. Sevimli xanımının ölümündən sonra hər şeydən əl çəkən hökmdar hakimiyyətini böyük oğluna verməyi düşünsə də, qızı Cahanara və ordusunun komandiri Mehabat Xan da buna razı olmurlar. Şah Cahan hakimiyyətdə qalmağa razı olur. Lakin özündən sonrakı varisin Dara olduğunu bəyan edir. Bu da digər qardaşları arasında narazılığa səbəb olur. Çünki Dara dövlət işlərindən daha çox babası kimi din adamları ilə bir yerdə çox vaxt keçirir, şeir yazır. Fil döyüşü zamanı Əurəngzəbin göstərdiyi cəsarətə bütün saray əyanları şahid olur. Saray əsilzadələri Daradan çox Əurəngzəbin gələcək hökmdar olması barədə həmfikirdilər. Lakin hökmdar Əurəngzəbi xoşlamır. Bunun səbəbi bir fəqirin şahzadənin gələcəkdə şaha böyük sıxıntılar yaşadacağı haqqındakı kəhanəti idi. Hökmdar bütün oğullarını müəyyən bəhanələrlə saraydan yollayır. Dara isə sarayda qalır. Atası oğulları içində ən sevmədiyi oğlu Əurəngzəbi dəfələrlə Daranın təhriki ilə danlayır. Atasının xəstələnməsi hakimiyyət uğrunda şahzadələrin meydan alanına çevrilir. Ondan öyrəndiklərini tətbiq edən oğulları atasının sağlığında mübarizəyə başlayır. Nəhayət, bu döyüşdən qalıb çıxan Əurəngzəb Babur imperiyasının yeni, eyni zamanda sonuncu güclü hökmdarı olur.
**Açar sözlər:** trilogiya, Cahan Şah, Əurəngzəb, imperiya, mübarizə

## The literary representation of prince Aurangzeb's struggle for power in Indu Sundaresan's novel "The Shadow Prince"

**Leyla Pirimova**
PhD candidate
Institute of Literature named after Nizami Ganjavi of ANAS, Azerbaijan
E-mail: leyla.pirimova@mail.ru

**Abstract.** The unity of historical and artistic imagination is clearly visible in the novels of Indu Sundaresan. The creation of images of historical figures in the historical novels of the author was a continuous process. These historical figures, whose images were created, left their mark on history. As in other novels of the author, the struggle for power found its artistic reflection in the novel "The Shadow Prince". Shah Jahan, who founded his kingdom by destroying all the men of the family for the sake of the throne, must learn a hard lesson from history. The ruler, who abandoned everything after the death of his beloved wife, thought of passing on power to his eldest son, but his daughter Jahanara and the commander of his army Mehabat Khan did not agree to this. Shah Jahan agrees to remain in power. However, he declares Dara his successor. This causes discontent among the other brothers and sisters. Because Dara spends much time with religious people, such as his grandfather,

and writes more poetry than state affairs. All the courtiers witness Aurangzeb's bravery during the battle on elephants. The courtiers agree that Aurangzeb should be the future ruler, not Dara. However, the ruler does not like Aurangzeb. The reason for this is the prophecy of a poor man that the prince will cause great trouble for the king in the future. The ruler, under some pretext, takes all his sons from the palace. Dara remains in the palace. At Dara's instigation, his father repeatedly scolds Aurangzeb, his least favorite among his sons. The illness of the father turns into a challenge to the princes' power. His sons began to fight during their father's lifetime, applying what they learned from him. Aurangzeb, who survived this battle, became the new and last powerful ruler of the Mughal Empire.
**Keywords:** trilogy, Jahan Shah, Aurangzeb, empire, fight

Tarix bizim üçün keçmişə bir güzgüdür. Bugünkü hadisələri analiz etmək üçün o güzgüyə boylanmalıyıq. Geriyə baxdığımızda Hindistan ərazisində min ildən çox mədəniyyət izləri, 800 illik siyasi idarəçiliyi olan türk hökmranlığı görürük. Yazıçı İndu Sundaresanın "Tac Mahal" trilogiyası bu baxımdan olduqca əhəmiyyətli və önəmlidir. Trilogiyaya daxil olan romanlar üç əsr Hindistanda hökm sürən baburlular haqqında yazılmış maraqlı bədii-tarixi əsərdir. Əsərin süjet xətti ilə əlaqədar olaraq yazıçı dövrün ictimai-siyasi məsələlərinə də işıq tutur. Bütün zamanlarda əsas problemlərdən biri olan hakimiyyət uğrunda mübarizə əsər boyu davam edir. Tarixi vərəqlədikcə demək olar ki, ailə hakimiyyəti olan sülalələrdə bu məsələ həmişə özünü büruzə verir.

XVI əsrdə üç türk imperiyası Osmanlı, Səfəvi, Baburlu özünün altın çağını yaşayırdı. Elə buna görə də, tarixçilər bu dönəmi qızıl türk dövrü kimi xarakterizə edirlər. Və hər üç imperiya da hakimiyyət uğrundakı savaşlardan nəsibini almışdır. Bu imperiyalar içərisində məsafəcən uzaq olan türk tarixçiləri tərəfindən az tədqiq olunmuş Hindistandakı türk imperiyası baburluların hakimiyyət uğrundakı çəkişmələrini öz incə ruhu ilə İndu Sundaresan böyük ustalıqla "Tac Mahal" trilogiyasında əks etdirir.

"Tarixi əsər yazmaq üçün təkcə sənədlərə əsaslanmaq kifayət deyildir. Tarixi roman bədii yaradıcılıq məhsuludur. Müəllif əldə etdiyi faktları, məlumatları sənətkar təxəyyülü ilə zənginləşdirməli, bədii əsər üçün vacib olan kompozisiya və süjet daxilində "əritməlidir" [1].

Tarix iki halda təkrarlanır: ibrət götürəndə yaxşı məqamlar, götürməyəndə pis məqamlar təkrar olunur. Cahangir şahın hakimiyyət uğrunda atası və qardaşları ilə başladığı savaşı onun oğulları və nəvələri də miras alırlar. Taleyi üzünə gülən Cahangir qardaşlarının vaxtsız ölümü ilə atası tərəfindən taxtın varisi elan edilməsinə baxmayaraq, bir zamanlar özünün də etiraf etdiyi kimi, oğlunun da ona qarşı başladığı mübarizədən qalib çıxır, lakin hakimiyyətinin sonlarında sevimli oğlu Xürrəmlə mübarizəyə başlayır. Atası Cahangir şahın ölümündən sonra ailəsinin sağ qalan bütün varis erkəklərini ortadan götürərək hakimiyyəti ələ keçirən Xürrəm Cahan şah adı ilə taxta oturarkən tarixin daha acı bir şəkildə təkrarlanacağını bəlkə heç xəyal belə etmirdi. Qələbəsinin sevinci içində şad və xürrəm idi. Lakin tezliklə sevimli arvadının ölümü onu hər şeydən soyudur, həyatdan küsür, hətta uzun müddət mübarizə apardığı taxtdan belə vaz keçmək qərarına gəlir. Cahan şahın hakimiyyətdən vaz keçməsi dedi-qoduları oğullarının iştahını qabardır, atalarından, babalarından öyrəndikləri hərəkətləri tətbiq etməyə təhrik olunurlar. İnsanın təbiəti tamahkar olaraq yaradılmışdır. Həyatda qalmaq üçün o hər zaman güclü olmalıdır. Cahan şah komandiri, bir zamanlar atasının nədimi, uşaqlıq dostu, sonradan düşməninə çevrilən Məhabat xandan onun yerinə hansı oğlunun layiq olduğunu soruşur. Ədib bu səhnədə şahın oğlanlarının xarakterlərinin oxucuları üçün Məhabat xanın fikirləri ilə açıqlayır: "Dara, hörmətsiz it balası, ancaq özünü düşünən, Şuca sadəcə köpək yavrusu, idarəçiliyi bacarmır, Əurəngzəb bir liderdir, amma o da nəsihətlərə qarşı əyilməz və müqavimətli idi və Murad... yaxşı, Murad hələ heç nə idi, formalaşmamış və balaca" [2]. Sarayda hər kəs Daranın şahın sevimlisi olduğunu bilirdi. O, səhv etməyi bacarmır, vəliəhd idi və imperiyanı idarə edəcəkdi. Şahın tək problemi oğlanları deyildir, qızları Cahanara və Roşanara arasında da bir çəkişmə var idi. Dara kimi

Cahanara da atasının sevimlisi idi. Bacısını qısqanan Roşanara taxtın digər namizədi vəliəhd Əurəngzəb ilə ittifaq qurmağı planlaşdırır. Cahanara da atası kimi Daranı dəstəkləyir. Əurəngzəb bacısının onu çox istəməsini və bu istəyin səmimi, sağlam və sarsılmaz olmasını arzulayır, çünki onun Cahanaraya qarşı böyük ehtiramı, məhəbbəti var. Və istəyirdi ki, taxta gedən yolda Cahanara onu dəstəkləsin. Əurəngzəb hələ də uşaq sayıldığını yaxşı anlayır, baxmayaraq ki, o, artıq hərəm mənzillərindən mərdanə məhəlləsinə köçmüşdür. Əurəngzəb ata Daradan yaxşı minir, demək olar ki, bütün Quranı əzbərdən bilir. Sanki paltarı padşahların parçasından biçilmişdi. Cahanara qardaşlarının taxta keçmək üçün atasından xəbər gözlədiklərini öyrənir, onu dəhşət bürüyür, atasının verdiyi bu qərarla oğulları arasında taxt-tac savaşı başlayacaq və imperiya dağılacaqdır. Cahanara atasının qərarına etiraz edir, bunun bir dəlilik olduğunu söyləyir. Cahanara Daranı dəstəkləsə də, onun hələ bu vəzifəyə hazır olmadığını fikirləşir və özünü taxtdan endirən imperatora "kim diqqət edəcək", – deyə atasından soruşur. Cahan şah bir naiblik düşündüyü fikrini dilə gətirsə də, Cahanara onunla razılaşmayaraq, başqa bir erkəyin dövlət məsələlərində oğluna məsləhət verməsinə icazə vermək istəyinin nə qədər yalnış olduğunu atasının diqqətinə çatdırır. Cahan şahın uzun müddət *caroko* balkonuna çıxmaması xalqın şahın öz əli ilə öldüyünə, imperatorun taxtdan endirildiyi, oğlanları tərəfindən öldürüldüyü, hansı oğlunun əlləri atasının qanında yuyuldu kimi boş söz-söhbətlərin baş alıb getməsinə səbəb olur. Şahın ölümü əfqan kralının ölkəyə hücumuna səbəb olacağına, imperatorun ölümünü eşidən əfqan kralı ölkənin şimal-qərb istiqamətində üsyan planlayacağına, tezliklə Hindistanda başqa sülalə tac qoyacaq kimi iddialar xalq arasında dolaşmağa başlayır.

Nəhayət, arvadının ölümündən bir həftə sonra şah erkəndən *caroka* balkonuna çıxır. Hər kəs imperiyanın Burhanpurdakı sarayına axışır. Babur imperatoru saray, ölkə, imperiya anlamına gəlirdi və onun möhtəşəm şəxsində, onun tacında – Babur Hindistanında 130 milyon insanın taleyini həll etdi. "Bir bölgə silahla əldə edilər, lakin silahla əldə tutulmaz. Orada daimi ola bilmək incə bir siyasətə bağlıdır" [4]. Yazıçı əsərdən məharətlə yararlanaraq oxuculara caroka barədə məlumat verir: "Baburluların yerli xalqı öz təbəəsi kimi gördüklərindən onlara hörmət etdiyini, hətta onlarla qaynayıb-qarışdıqlarını, onlara yaxın olmaq üçün onların bir sıra adətlərini icra etdiklərinə diqqət yetirir. Caroko oturumu çoxsaylı hindu adətlərindən biri idi ki, Baburlu imperatorları tərəfindən şəxsən qəbul edilən, hətta onları ölçüyəgəlməz dərəcədə zənginləşdirən və onların varislərini Hindistan torpağında ən güclü sülalələrdən birinə çevirmişdi" (Sundaresan, 2010).

Şahzadə Cahanara atasının təcili ehtiyacını qarşılamaqda yalnışlıqla 4 qardaşına da vaxtından əvvəl imperatorun nə olduğunu görmək, böyük gücü dadmalarına icazə vermişdi. Onların hamısı bunu istəyir. Hər birinin imperatorluq taxtına sahib olmaq hüququ olsa da, nəticədə onlardan yalnız biri imperator ola bilər. Bunu etmək üçün isə atasının və 3 qardaşının həyatını alacaq. Əurəngzəb ümidsizcə atasından sonra kral olmağı istəyir və hər kəsin, hətta özünün etibarlı olduğunu və yerinin haqlı olaraq özünə aid olduğunu düşünən Daranın belə bunu qəbul etməsini istəyir. Əurəngzəb qardaşı Daranı izləyir hamının ona sevgi nümayişinə şahid olur. O, Daranın səhv edərək islamdan uzaqlaşıb cəzvid rahibləri ilə oturub-durması, digər dinlərə maraq göstərməsi, Əkbər şah kimi başqa dinlərə meyil etməsini qınayır.

Fil döyüşü zamanı fil üstündəki baxıcısını atır. Hamı təşviş içində meydandan qaçarkən Əurəngzəb orada yalnız qalır və oradan keçən əsgərdən mizrağı alıb filin iki gözü arasından vurub öldürür. Onun bu cür hərəkət etməsi saray əyanları arasında onun nüfuzunun artmasına səbəb olur.

Əurəngzəbin 15 yaşı qeyd edilir, imperator kimi onu da tərəzidə çəkirlər. Atası ona xalat, daş-qaşlarla işlənmiş bir şərəf cübbəsi, həmçinin qızıl xəncər, qızıl sikkələrdə 5000 rupi verir. Şuca üçün, onun döyüşdəki cəsurluğuna görə ona da xalat və xəncər verir. Mükafatlandırma zamanı şah oğulları arasındakı qısqanclıq münasibətinə şahid olur və onları danlayır. Ədib şahın fikirləri ilə ona əmanət olunmuş imperiyanı və oğlanları qorumaq üçün onlara öyüd verdiyini oxucuların nəzərinə çatdırır: "Mən bu müzakirəni ona görə başlamadım ki, sizə cavab verəm, mən yalnız onu demirəm ki, siz dörd qan qardaşı eyni ana və atanın övladlarısınız. Nə vaxt ki imperator olacaqsınız... Əgər Dara, məndən

sonra imperator olsan, sənin öhdəndə qardaşlarının qayğısını çəkmək kimi öhdəçiliyin olacaq, onların rütbələrinə uyğun sarayda onlara vəzifələr verməlisən. Və digərlərinin öhdəçiliyi isə bütün işlərində böyük qardaşlarına dayaq olmaq, onu dəstəkləməkdir. Belə ki, imperiya üçün biz imperiyayıq, birləşib bir ailəni təmsil etməliyik" [2].

Bir il sonra Şah Cahan şahzadə Şah Şucanı Parenda qalasına hücuma nəzarət etmək üçün Dekkana göndərir. O, 50 min piyada, atlı süvarlilərlə, fillər və ağır artileriya ilə bərabər böyük güclə səfərə çıxır. Əslində Dekkan düşərgəsi Şucanı göndərmək üçün bir bahanə idi. Şucanın atasına etiraz etməyə haqqı yoxdur. Çünki kral mütləq hakimdir heç kəs, hətta imperiya şahzadəsi olsa belə, ona etiraz edə bilməz. Dara, imparatorluğun varisiydi, digər varislərə gəlincə, onlar yüksək rütbələr, yüksək maaşlar, ərazinin ətrafında köşklər və saraylar, cagirlər və bölgələri idarə etməklə təmin olunacaqlardı, ancaq cümə namazından öncə məscid müəzzinləri tərəfindən xütbədə, sadəcə, bir adamın adı çəkiləcəkdir – sadəcə Dara imperiyanın bütün sakinləri üçün İmperator elan ediləcəkdi.

Şuca Aqranı tərk edərkən şahzadə Roşanara, Əurəngzəbə növbəti dəfə onun sarayı tərk edəcəyini diqqətinə çatdırır. Əurəngzəb isə gülərək gedəcəyini bildirir. Onun fikrincə, sarayda boş-boş gəzən, döyüşlərdə qan tökməyən, imperiyadakı ən böyük sədaqətini daşımayan imperator nə işə yaraya bilər ki? Özündən əmin bir şəkildə gedib qayıdacağını, o zaman burada yardıma ehtiyacı olacağını bildirir. Roşanara Cahanaranı xoşlamırdı və Cahan Şah Daranı açıq şəkildə dəstəklədiyindən, Roşanara da dəstəkləyəcək başqa bir qardaş tapmışdır. Əurəngzəb, əlbəttə ki, Roşanaranın köməyini qəbul edər, amma sevdiyi dəyərlisi Cahanara idi.

Cahan şahın Kəşmirə ilk ziyarəti zamanı əyləncə təşkil olunur, hoqqabazlar oyun göstərirlər, lakin Cahanara bir narahatçılıq hiss edir. Hoqqabazların göstərdikləri oyun Əurəngzəbin çox şişirdilmiş formada bir karikaturu idi. Daha sonra Daranın təlxəyi gəlir, ifadəsini və davranışını dəyişərək Babur imperiyasının sədrəzəmi Sədullah xanı təqlid edir. Cahanara etiraz edərək bunun cəfəngiyyat olduğunu və Daranın onu dayandırmasını istəyir. Təqlid zamanı Sədrullah xan bunlara şəxsən şahid olur. Dara bunun bir zarafat olduğunu bildirir. Bütün bu baş verənlərin heç bir açıqlaması ola bilməzdi. Bu hadisə saray əyanları arasında Daraya o qədər də xoş olmayan münasibətə öz təsirini göstərir.

Lahorda Cahanaranın Nur Cahanı ziyarət etməsiylə ədib sanki Nur Cahan vasitəsilə "Tac Mahal" trilogiyasına daxil olan əvvəlki iki romanla bu son romanı da bir-birinə bağlamış olur. Çünki "Qızılgüllərin ziyafəti" adlı ikinci romanının sonunda qəhrəmanı Nur Cahanın öldüyü təsvir edilir. Yazıçı həm də Nur Cahanın saraydan uzaqlaşdırılmasına baxmayaraq, hələ də taxt mübarizəsindəki oyunları görə bildiyini nəzərə çatdırır. O, Cahanaraya Əurəngzəbin ruhundakı narahatçılığı gördüyünü və Dara ilə birlikdə diqqətli olmasalar, qardaşı Əurəngzəbin atasından sonra imperator olacağını vurğulayır. Cahanara isə bunun əsla olmayacağını, sonrakı varisin Dara olduğunda israr etsə də, Mehrunisə laqeyd bir şəkildə Daranın bəzən zəif biri olduğunu, Cahanaranın da bunu görə bildiyinə ehyam vuraraq onların üçünü də, Dara, Şuca və Əurəngzəbi tanıdığını, onların 3 il onunla və babaları ilə birlikdə olduğunu qeyd edərək, Əurəngzəbi izləyib, Daraya da onu izlətməsini məsləhət görür.

Əsərin gedişatı ilə əlaqədar olaraq yazıçı Mirzə Nəcəbat xanın düşüncələri ilə saray əsilzadələrinin Daranı deyil, Əurəngzəbə dəstək verdiklərini nəzərə çatdırır: "Üzr istəyirəm, Əlahəzrətləri, amma orada belə bir qətilik yox. Şahzadə Dara Şikoh əlahəzrətlərinin rəğbətini qazandı, ancaq saraydakı zadəganlar... hamımız şahzadə Əurəngzəbin daha bacarıqlı olduğunu düşünürük. O gənc adamda cəsarət və sarsılmaz bir qərarlılıq var. Və o kübardır, yaxşı tərbiyəlidir, imperiya şahzadəsinin bütün xüsusiyyətlərinə sahibdir. Dara təkəbbürlü, mədəniyyətsiz, onlar üçün bir imperator olaraq, qəbul olunmayacaq qədər qeyri-ciddi idi. Şahzadə Şuca belə məğlub olduqları bir döyüşdə Mehabat Xana kömək etmək üçün Dekkana getmişdi, ancaq cəsarət savaşda sınanmışdı. İmperiyanın yumşaq qucağında yaşayan şahzadələr üsyankar bir qərar verə bilməz. Sarayın yumşaq qucağında yaşadığı üçün rahat axarlı sərhədlər və içindəki üsyanlarla inadkar bir imperiyanı idarə edə

bilməz. Əurəngzəb də hələ sarayda yaşamasına və bir əsgər kimi təcrübə olunmamasına baxmayaraq, səsini ucalda bilir, həmçinin incəliyi var. Gənc Əurəngzəb ətrafında xoş niyyət aurası yaradır. Daranın qaçdığı və Əurəngzəbin qəzəbli Suxarla qarşı-qarşıya gəldiyi təxminən 1 il əvvəlki fil döyüşündəki təkəbbürü barədə zadəganların uzun xatirələri var. Və nəhayət, imperiya ancaq onların dəstəyini qazanmış adamın qoruması altında sülh tapacaqdır. Belə böyük bir imperiyanı idarə etmək üçün sadə və dəyişməz bir qaydadır" [2]. İmperator Şah Cahan Əurəngzəbin 16 yaşında ona sarayda birinci rütbəsini verib 10.000 atın komandiri təyin edir. Bir neçə ay sonra cənubdakı üsyankar Bundela kralını fəth etmək üçün onu göndərdilər. Təxmin edildiyi kimi, Əurəngzəb saraydan sürgün edilir, geri dönməmək üzrə uzağa göndərilir.

Romanın süjet xəttinə uyğun olaraq, yazıçı zaman-zaman imperiyadakı tarixi hadisələri də diqqətə çatdırır. Bu hadisələrdən bir də Bundela kralının üsyanıdır. Bundela kralının üsyankar davranışına cavab olaraq şah 20 minlik bir ordunun başında 3 generalı, adamlara rəhbərlik etmək üçün Əurəngzəb ilə birlikdə 16 yaşındakı şahzadəyə tövsiyələr və öyüd vermək üçün qaynı Şaista xan ilə birlikdə onu Orçaya göndərdi.

Döyüşdən sonra Əurəngzəb məktub yazaraq Raca Chuchar və oğlunun Dekkan krallıqlarına qaçdığını və orada öldürüldüyünü, Racanın bütün mülkünün artıq imperiyanın əllərində olduğunu xəbər verir. Məktubu oxuyarkən Cahanaranın qaşları hirslə çatılır. Məktubu atasına göstərmir. İmperator Şah Cahan içini çəkir, Tovuz Quşu Taxtı unudulmuşdu, övladlarının dərdləri onu əzir. Dara onun ilk oğluydu, bu imperiyanı ona miras qoymağı planlayır, amma yenə də qanedici deyildi, siyasət məsələlərində çox qeyri-ciddi ikən, kitablara və öyrənməyə çox düşkündür. Bir hökmdar üçün qəti olaraq yaxşı bir birlik olmaz, çünki qılınc tutan əl hər zaman tük qələmini tutandan daha güclü olmalıdır. Şuca və Murad isə idarəçilikdə məyusedici idilər, atəş və don, biri kifayət deyil, Əurəngzəb güclüydü, ağlı başındaydı, padşahların parçasından kəsilmiş, lakin o, yaxşı olmaq üçün çox dözümsüzdür.

"Tarixi romanda müəllif təxəyyülünün rolu mühümdür. Çox zaman ayrı-ayrı mənbələrdə tarixi hadisə və şəxslər haqqında verilən məlumatlar bədii əsər üçün kifayət etmir. Yazıçı öz təxəyyülü ilə uydurduğu epizod və yaratdığı surətlər vasitəsilə bu boşluğu doldurmağa çalışır. Lakin tarixi həqiqətlə yazıçı uydurmasının vəhdətini gözləmək lazımdır. Yazıçı istedadı bu məqamda xüsusilə nəzərə çarpmalıdır. O, bədii uydurma vasitəsi ilə tarixdən aldığı fakta yeni ştrixlər əlavə etməklə əsəri daha da zənginləşdirməlidir" [1]. İstedadlı yazıçı İndu Sundaresan da bu işin öhdəsindən məharətlə gəlmişdir. Oğlanları barədə fikirləşən imperator Əurəngzəb haqqında deyilən kəhanəti də xatırlayır. Bir fəqir şaha varislərindən birinin onun hakimiyyətinə son verib şahın sağlığında taxtda çıxacağını xəbər vermişdir. Həmin varis doğulanda bir yara izi ilə dünyaya gələcəkdi. Dörd oğlundan sadəcə Əurəngzəbin kürəyinin ortasında bir doğum ləkəsi vardı. Fəqir bundan başqa, qəribə bir şəkildə Şah Cahan öləcəyi zaman əllərindən alma qoxusu gələcəyini söyləmişdi.

Taledən gözlərini bağlayaraq, onu rədd edərək, döyüşərək, uzaqlaşaraq qaça bilməzsən. Bunlar, sadəcə, bunu yerinə yetirməyin başqa yollarıdı. Cahanaranın başına gələn bədbəxt hadisəni eşidən Əurəngzəb həmin gecə bacarıqlı komandirlərinə əmrlər verir və Aqraya yollanır. Şah Cahan onu rəsmi olaraq Dekkanın qubernatoru təyin etmişdi. Əurəngzəbin heyəti 1644-cü ilin sonunda Aqraya daxil olaraq düşərgə salır. Burada xoş qarşılanmayacağını bilən Əurəngzəb bunu Cahanara üçün edir. Atasına gəliş xəbərini yollayaraq, görüş üçün xəbər gözləyir. Şah Şuca da həm Əurəngzəbin, həm də Muradın yolda olduğunu eşidərək siyasi cəhətdən onun da sarayda olmasının daha doğru olduğunu düşünür. Cahanara Daranın təhriki ilə hərəkət edən atasının Əurəngzəbi incidəcəyini çox geç öyrənir. Əgər bundan xəbəri olsaydı, ehtiyatlı hərəkət etməyi məsləhət görərdi. Şah Cahan da həmişəki kimi onu dinləyərdi. Bir şeyi başa düşəndə artıq çox gec idi. Və bu kiçik hərəkət imperiya tarixində bir dönüm nöqtəsinin toxumlarını əkir. Cahanaranın vəziyyəti birdən pisləşir. Şahzadə Əurəngzəb atasına hər gün 500 rupi qızıl pul kisəsi göndərərək, onu gecə üçün Cahanaranın yastığının altına qoyması və sabah fəqirlərə paylamaq üçün yalvarır. Təsadüfən bir fəqir qızının çarəsizliyi üçün

həkimlərdən mədəd uman Şah Cahana qızını sağaldacağını söyləyir və dediyini də edərək şahzadəni sağaldır. İmperator Şah Cahan bəlkə də illər öncə alma verən fəqirin də doğru söylədiyini düşünmədən keçmir. O, ilk fəqiri xatırlayan Şah Cahan Dekkandakı imperiya ordusunun narazı komandirlərindən əldə etdiyi və Əurəngzəbin ordusunu Dekkan krallıqlarına təşkil etdiyi müxtəlif hücumlardakı davranışını üstüörtülü bir şəkildə qınayan məktubları araşdırır. Tək-tək ələ alındığında hər iddia qisasçı idi və Şah Cahan onlara fikir verməz idi. Lakin sevimli qızının gec sağalmasını gözləmək onun qəlbini çox sıxır və o da bütün hirsini sevmədiyi oğlundan çıxardır. Dara Şikokun etirazları da atasını qardaşına qarşı daha da təhrikə sürükləməyə yönəldir.

İmperator 1644-cü ilin mayında Aqranın kənarında düşərgə salıb Cahanaranın xəstəliyi barədə məlumat gözləyən Əurəngzəbə qısa bir məktub yazaraq onun xoş olmayan davranışı haqqında əldə etdiyi hesabatlar səbəbindən artıq onu icra etdiyi vəzifədən çıxardığını söyləyir. İmperator oğluna son bir təhqir olaraq qayınlarından Saif xanı artıq boş olan qubernatorluğa yollayır. Əurəngzəb hər gün atasından xəbər gözləyir və gözlədiyi xəbər gəlir, lakin atadan deyil, Daradan gəlir. O, son zamanlarda qalanın yaxınında Yamuna sahillərində atasının bəxş etdiyi bütün bol pul ilə inşa etdiyi möhtəşəm malikanəni ziyarət etmək üçün alçaldıcı bir dəvətdir. Əslində dörd qardaşını bir araya gətirmək fikri Cahanaraya məxsus idi. O, yavaş-yavaş sağalırdı və qardaşları arasındakı xoş olmayan münasibəti düzəltmək istəyirdi. Yemək mərasimindən sonra otaqdan çıxan Daranın arxasınca qapılar bağlananda Əurəngzəb burada Daranın sərin yeraltı otağında qapıların qardaşının taxt üçün sahib olduğu bütün rəqiblərinin üzərinə bağlanmış olduğunun planlı bir şəkildə gerçəkləşdiyini düşünür, ona görə də qapını var gücüylə açmağa çalışarkən gülünc vəziyyətə düşür, çünki əslində, ortada onun düşündüyü kimi bir məsələ yox idi. Dara sadəcə, musiqiçilərin ardınca getmişdi. Lakin onun bu hərəkəti atası tərəfindən xoş qarşılanmır. İçəridəki əyləncədən sıxılan Əurəngzəb namaz qılmaq üçün otaqdan çıxır və geri dönərkən qapının üzünə bağlı olduğunu görür. Qapının qarşısında duran nəzarətçilər ona atasının buyruğunu verib göndərirlər. İmperator Cahan şah onun qardaşına qarşı hörmətsizliyi və qonaq olaraq diqqətsizliyi haqqında uzun və ağır bir məktub göndərib onun üzünü bir daha görmək istəmədiyini, onun qəribə davranışının şahın səbir kasasını doldurduğunu bildirir.

Yazıçı tarixi qaynaqlara yaxından bələd olduğundan əsərdə zaman-zaman Əurəngzəbin necə qatı dindar olduğuna diqqət çəkir. Bu, tarixi faktdır, dövrün tarixçiləri, səyyahları da bunu qeyd etmişdilər.

Tamamilə sağalan Cahanara baş vermiş hadisəni öyrənən zaman qardaşına məktub yazaraq gəlib atalarından bağışlanmasını istəyir. Əurəngzəb isə etiraz edir, Daraya güvənmədiyini açıq bir şəkildə dilə gətirir. Ədib ustalıqla dövrün yazılmamış qaydalarına yaxşı bələd olduğundan şahzadənin bu davranışının haqlı olduğunu oxuculara bəyan edir.

Şah Cahan Əurəngzəbə Qucerat qubernatorluğunu verir və ona imperiyanın hüdudları içində boş-boş dolanmaq əvəzinə, vəzifəsini yerinə yetirməsini söyləyir. Əurəngzəb ilə atası arasında belə başlayan uçurum əsla tam olaraq yaxşılaşmadı. Elə bu, sonun başlanğıcıydı.

Bir il sonra imperiya əyanları Kəşmirdə olarkən Bəlx qubernatoru Nəzər Məhəmməd Xan, Kabil şəhərini ələ keçirməyə təşəbbüs göstərir, lakin müvəffiq ola bilmir. Şah Cahan bu kiçik qubernatorun qüdrətli Babur imperiyasına hücum etməsindən qəzəblənir və qisas olaraq imperiya qoşunlarını Bəlxi ələ keçirmələri üçün yollayır. Yazıçı İmperatorun bu bəhanədən istifadə etmək qərarına gəldiyini oxucularına çatdırır. O, uzun zamandır ki, Bəlx və Bədəhşahı ihlaq etmək istəyirdi. Tüfəng və toplarla təchiz olunmuş ordunun başında Muradı yollayır və onu güclü 50.000 süvari, 10.000 piyada bir qüvvə ilə təchiz edir. Ordu Bəlxi ələ keçirsə də, Muradın zəif bir rəhbər olaraq orduya nəzarət edə bilmədiyindən özbaşnalıq özünü büruzə verir. Murad atasından geri çağırılmasını istəyir. Ədib şahın əlacsız olaraq yenə də çətin vəziyyətdə qalıb üzünü görmək istəmədiyi Əurəngzəbə yönəlməsini göstərir. Əməliyyat başından səhv olduğundan bir uğur qazanmaq mümkün olmur. Kabilə hücum planlayan Bəlxin keçmiş qubernatoru Nəzər Məhəmməd xan gizli şəkildə torpaqlarını geri qaytarmaq üçün öz ordusundan istifadə edir. Əurəngzəb Bəlxə çatanda onun sərvətini at belinə, fillərə, dəvələrə yükləyərək, Hinduquş dağlarındakı Ərbəng keçidi üzərindən Hindistana qaçacaq

vaxtı güclə tapır. Amma mühafizəçilərinin böyük bir qismini məhv edən düşmən qüvvələri tərəfindən təqib edilən, Əurəngzəbin qoşunu qarla örtülü bir keçiddən çətinliklə evə dönə bilirlər. Murad, Bəlxi tutmağı bacarmadığı zaman, sadəcə, bir yumruq atmaqla kifəyətlənərkən, Şah Cahan qəzəblə Əurəngzəbin onu itirməsindəki rolundan və yanında daşıdığı qənimətin az olmasından şikayət edir. Əurəngzəbi qubernator olaraq Multana yollayır və bunu atasına olan sədaqətinin sübutu üçün son şansı olduğunu nəzərə çatdırır.

İ.Sundaresan baburluların qonşuları ilə münasibətlərinə də diqqət çəkir. Əvvəlki romanlarında olduğu kimi, bu romanında da Qəndəhar nəzarət nöqtəsinin münaqişəli bir məsələ olaraq qaldığını oxuculara xatırladır. İran şahı II Abbas Qəndəharı yağmalayaraq, imperiyanın qoşunlarını məğlub edir və qisası gözləmək üçün öz güclü ordusunu qurur. Babur tarixinin çoxunda olduğu kimi, Qəndəhar baburluların əlindən səfəvilərə keçir. Bu, bir təhqir idi və bir imperator kimi Şah Cahan, Bəlxi fəth etmək istərkən Qəndəharın təhlükəsizliyi barədə xəta etdiyini başa düşdüyü üçün tez addım atır. Şahzadə Əurəngzəbə sərt bir məktub göndərərək – bütün oğulları içində ən sevmədiyi adamın güclü bir komandir olmaq imkanının ən yüksək olduğunu qəbul edir – və bu səfər imperiyanın Sədrəzəmi Sədullah Xan, Raca Cai Sinq, Əli Mərdan xan, Rüstən xan və Raca Bithaldas və böyük bir ordudan ibarət önəmli bir əsilzadə heyəti göndərir. Yazıçı qəhrəmanı Cahanara vasitəsi ilə şahın bu addımını qınayır, atasına bunun doğru bir qərar olmadığını söyləyir, çünki o, imperiyanın ən vacib adamlarını Əurəngzəbin əmrinə vermişdi. Qəndəhar mühasirəyə alınsa da, qala müqavimət göstərir, Əurəngzəb geri çağırılır və onun yerinə Dara yollanır. Çünki Cahanara Daranın da bir əmr sahibi olmasının vacibliyində israr edirdi. Nəticədə, Dara da uğurlu ola bilmir. Atası Əurəngzəbin vilayətlərini – Kabil və Multanı əlindən alıb onun yerinə sevimli Daraya verdikdən sonra ruhdan düşmüş, tükənmiş Əurəngzəb, Dekkana və Burhanpura qaçır.

Şah Cahanın xəstələnməsi sarayda səs-küyə səbəb olur. Şah Cahanın hökm sürdüyü 29 il içində yalnız bir dəfə caroka görüşlərinə gəlməmiş, ya da sarayda çıxmamışdı və bu da sevimli arvadının ölümüylə bağlı idi. Əurəngzəbin sevimli qadını ölmüşdü və onun ağlını erkən yaşındakı ambisiyalardan uzaqlaşdıracaq başqa əyləncə yox idi. Daranın bu qədər inadkar olması ilə bəlkə də Əurəngzəbin aqressiv olmaqdan başqa çarəsi qalmır. Amma hər ikisi də atasının ölüm yatağında olduğu kimi davranırlar. Şah Cahan səhər gözlərini açanda Cahanara ona bu gün carokaya getməli olduğunu söyləyir. Əgər saraydakı əmirlər Şah Cahanın öldüyünü düşünərlərsə, Daranı dəstəkləməyəcəkdirlər.

İmperator Şah Cahanı *caroka* balkonuna çıxarırlar, lakin o, xalqın qarşısına çıxır sonra da geri çəkilir. Hər kəs artıq onun öldüyü qənaətinə gəlir. “İstəklərinizi düşmənə qəbul etdirmənin ən təsirli yollarından biri də, heç şübhəsiz, onları daxildən bölməkdir. Bu vəziyyət onları zəiflədir və güclərini itirməsinə səbəb olur” [4]. Daraya qarşı duyduqları möhkəm və təbii olaraq dilə gətirilməyən nifrətləri səbəbiylə Əurəngzəb və digər iki qardaşı da bir araya gəlmişdi. İki qardaşı da ona inandığından bir-biriylə çox az əlaqə saxlayırlar. Əurəngzəb saraydakı əsilzadələrə onu açıq şəkildə dəstəkləsələr də, dəstəkləməsələr də, yalnız münasibətdə qalmaq üçün tərəfsiz qeydlər qələmə alır və imperiyadakı hər məlumat parçasının onun üçün dəyərli olduğunu söyləyir, bu səbəbdən əgər onunla bölüşməyi seçərlərsə, qürur duyacağını bildirir. Namazını bitirdikdən sonra atasının xəstəlik xəbərini açıb oxuyarkən imperator olsa, hökm sürmək üçün ən azı, 30 ili olduğunu düşünür. Babur Hindistanında suverinliyin üç qalası vardı: xütbə, imperiya fərmanlarını çıxartmaq səlahiyyəti və imperator adına pul basmaq. Yazıçı Əurəngzəbin məqsədinə çatmaq üçün doğru taktika seçərək komandirlərinə və generallarına atasının öldüyünü söyləyərək başqa heç bir şey-qəti bir çevriliş fikrinin onları daşımağa razı salmayacağını və Daranın kral olmaq təhlükəsini vurğulayır. Ölmədən öncə Daranın imperiyaya nəzarət etməsinə icazə verərək ağır bir səhvə yol verən atasının taxtdan endirməyə getdiyi həqiqətini artıq gizlətmir. Və beləliklə, niyyətini tam və doğru açıqlayır. Şahzadə Əurəngzəb atasının 30 il öncə babasına qarşı olduğu kimi, üsyan etməkdəydi və bunu sona çatdırmanın tək bir yolu vardı – biri öləcəkdi. Tarixi mənbələr də romandakı hakimiyyət uğrunda gedən mübarizənin gerçək olduğundan

bəhs edir: "Şah Cahan xəstələnir və dörd oğlu arasında taxt mübarizəsi başlayır. Taxtın ilk namizədi Dara Şükuh olsa da, Əurəngzəbin uğurları onu önə keçirir. Əurəngzəb, şübhəsiz, Şah Cahanın oğullarının ən bacarılıqlısı idi. Bu arada Şah Cahanın Benqal qubernatoru olan ikinci oğlu Şuca və ən kiçik oğlu Murad hökmdarlıqlarını elan edirlər. Şuca paytaxta doğru hərəkətə keçsə də, 14 fevral 1658-ci ildə Bahadırpurda məğlub olaraq Müngirə qaçır. Əurəngzəb və Murad Ucceyndə qüvvələrini birləşdirərək Dara Şükuhun komandiri Cəsvənt Sinqi 15 aprel 1658-ci ildə Dermetdə məğlub edirlər. Daha sonra Əurəngzəb Dara Şukuhu 29 may 1658-ci ildə Aqra yaxınlarında Samuqarxda məğlub edir və atası Şah Cahanı Aqra qalasında tutur. Bu arada Muradı da Qvaliyor həbsxanasına göndərir və 1661-ci ildə onu burada edam etdirir. Beləliklə, 31 iyul 1658-ci ildə Dehlidə taxtı ələ keçirən Dara Şükuh 23 mart 1659-cu ildə Əcmir yaxınlarında üç gün davam edən döyüşdə məğlub edilir. Bu məğlubiyyət zamanı Dara Şukuh qaçmağa çalışır, ancaq Məlik Civən tərəfindən tutularaq Dehliyə aparılır və bir müddət sonra öldürülür. Şuca isə Arakanda ölür. Qardaşlarını bu şəkildə aradan qaldıran Əurəngzəb dövlətin tək hakimi olur və 5 iyun 1659-cu ildə taxta çıxmasını ikinci dəfə qeyd edir" [3].

Nəhayət, 1659-cu ildə Əurəngzəb özünü Hindistan imperatoru elan edir və taxta gedən yolda rəqiblərini məğlub etməyi bacarır. Əurəngzəb adına xütbə oxutduqdan sonra atasını və Cahanaranı Aqradakı qalaya həbs edir. Daha sonra Daranın başı kəsilir, ardınca da Şucanın qətlinə fərman verir və nəhayət, Muradı da asaraq səfalətdən qurtarır. Əurəngzəb xütbədən sonrakı ilk ay Cahanaraya məktub yazaraq gəlib onunla birlikdə sarayda yaşaması üçün yalvarmışdı. Daha sonra Cahanara ilə görüşməyə gəlmiş bacısı isə onunla getməkdən imtina edərək günahlarını üzünə vurmuşdu. İndu Sundarensan sanki Cahanaranın düşüncələri ilə oxucularını da düşünməyə vadar edir. Cahanara: "Bəs bu baburluların sonu idi? Əurəngzəbdən sonra kim idarə edəcək? Çox sayda oğlunun, taxtı ələ keçirərkən onlara göstərdiyi dərsləri unudacağınımı düşünürdü? Özü, şübhəsiz, atasının ölümünü gözlədiyi kimi, oğulları da babalarının ölümünü gözləyirdi, çünki onlara bu öyrədilmişdi. Heç bir hörmət, heç bir düşüncə, heç bir yazığıgəlmə, heç bir simpatiya gerçək duyğusu olmadan imperiya necə həyatda qala bilərdi?" [2] düşüncələri ilə başbaşa qalır. Şah Cahan doqquz il Şah Burj qalaya həbs edilir. Ölüm döşəyində olan şah "cildimdə alma ətrini alıram; bu ölüm mənasına gəlir, əzizim" – deyərək Cahanaraya səslənir. Beləliklə, fəqirin 50 il öncəki "oğullarından birinin şaha əziyyət verəcəyini və ölüm vaxtı çatanda əllərinin gözəl ətirli olacağının" kəhanəti gerçəkləşir. Qalada imperator Əurəngzəbin xidmətində olan casuslar xəbəri artıq Dehlidəki imperatora çatdırmışdılar. Gecəyarısı oyandırılıb, qulağına bir kəlimə fısıldanılır. Əurəngzəb böyük bir rahatlama duyğusuyla yatağının yanında diz çökərək dua edir. Nəhayət, imperiyanın tək və danılmaz kralıydı.

Yazıçı tarixi faktlardan bir məqsəd üçün istifadə edir və tarixdə yarımçıq qalmış ideya və fikirləri tamamlamağa çalışır. Zaman bütün məsələlərdə olmasa da, bəzi məsələlərdə yazıçının tarixə baxışının, milli tarixin interpretasiyasında yazıçı münasibətinin doğru yolda olduğunu təsdiq edir. İndu Sundaresanın qəhrəmanının düşüncələri ilə baburluların sonu barədə keçirdiyi narahatçılığı sonrakı hadisələr fonunda nə qədər gerçək olduğu öz tarixi təsdiqini tapmışdır.

## Ədəbiyyat

1. Axundlu, Y. Azərbaycan tarixi romanı: mərhələlər, problemlər: 1930-2000. – Bakı: Adiloğlu, 2005.
2. Sundaresan, İ. Shadow Princess. Washington Square Press, 2011.
3. Savaş, M.M. Hindistan Türk Tarihi. Selenge Yayınları, 2024.
4. Yeniaras, O. Kerbela Ateşi. Panama Yayıncılık, 2019.